2022

MİLLİ MÜDAFİƏ UNİVERSİTETİ

***Hərbi Liseylərə qəbul üçün tələb olunan sənədlər və qəbul qaydaları***

# *Hərbi Liseylərə qəbul üçün tələb olunan sənədlər*

**Ümumi məlumat:**

**Tədris dili: Azərbaycan dili** **Təhsilalma forması: əyani**

Cari ildə 15 yaşı tamam olan və 17 yaşı tamam olmayan, ümumi təhsil pilləsinin ümumi orta təhsil səviyyəsini bitirmiş, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilir.

Hərbi liseylərə sənəd qəbul prosesi 3 mart 2025-ci il tarixdən 30 may 2025-ci il tarixədək həyata keçiriləcəkdir. Namizədlər aşağıda qeyd olunan sənədləri hazırlamalı və sıra ardıcıllığı ilə kağız qovluğa yerləşdirməlidir:

1. **Ərizə**
2. **Anket forması**
3. **Doğum haqqında şəhadətnamənin surəti**
4. **Valideynlərin və ya qəyyumlarının razılıq ərizələri**
5. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqə məlumatları üzrə elektron arayış**
6. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
7. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə**
8. **Tibb üzrə:**
   - **Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdə (kabinetlərdə) qeydiyyatda olub-olmaması haqqında arayış.**
   - **Xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar, ambulator xəstənin tibbi kartı (olunmuş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma № 27/U), rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibb kartası – forma № 26/U)**

*HƏRBİ LİSEYLƏRƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR*

1. Hərbi həkim komissiyası tərəfindən hərbi liseydə təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman barəsində hərbi liseyə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər hərbi liseydə təhsil almaq üçün namizədlər siyahısına daxil edilmirlər.

2. Namizədlərin hərbi liseylərə qəbulu müvafiq tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanından əldə etdikləri nəticələrə əsasən həyata keçirilir.

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasında müayinədən keçmək üçün tarix və ünvan namizədlərə əlavə olaraq bildiriləcək.***